# QURULUŞ HİSSƏSİNİN TƏŞKİLİ

**Nazim BƏYKİŞİYEV,**
*ADRA-nın dosenti*

Tərtibatın ideya layihəsinin müəllifi olan quruluşçu rəssam onun yeganə yaradıcısı deyil. Tamaşanın quruluşçu rəssamı asanlıqla eskizləri çəkə, tərtibatın maketini qura, planlaşdırmanı, layihə və şablonları hazırlaya, müxtəlif hesablamalar apara bilər, amma o, dekorasiyaları hazırlamaq, onları yığmaq, işıqlandırmaq, onların dəyişilməsini, hərəkətini təmin etmək iqtidarında deyil. Nəzəri olaraq, əlbəttə, hər şeyi bacaran universal sənətkarı təsəvvür etmək olar; o, tirlərdən, lövhələrdən, fanerlərdən dəzgah, pilləkən, çərçivələr düzəldə, səhnədə lazım olan hər şeyi, istənilən butaforiyanı hazırlaya, gözəl montajçı, mexanik və elektromexanik ola və digər müxtəlif səhnə işlərini də yerinə yetlrə bilər. Amma təcrübənin göstərdiyi kiml bu iş daha çox zəhmət tələb edir və ən əsası, hətta kiçik səhnədə belə eyni zamanda bir neçə mütəxəssisin iştirakı tələb olunur.

Teatr rəssamı tamaşaya tərtibat verərkən onun bu və ya digər detalının hazırlanması ilə bağlı hər şeyi bilməlidir. Amma bütün bu biliklər rəssama işi özünün görməsindən daha çox, tamaşanın vizual obrazının yaradılması prosesinə bacarıqla rəhbərlik etmək üçün lazımdır.

Rəssamın eskizlərini musiqi əsərinin partiturası ilə müqayisə etmək olar. Doğrudur, notlardan fərqli olaraq, eskizlər sərbəst bədii məna da kəsb edə, tamaşa tərtibatından asılı olmayaraq insanlara estetik zövq də verə bilər, amma tamaşa tərtibatında eskizlərin gerçəkləşdirilməsi rəssam ideyasının təcəssümü, "direktiv"in icrası bilavasitə icraçılar ansamblından asılıdır.

Tamaşanın tərtibatı ilə məşğul olan bədii-texniki işçilər qrupu bədii-quruluş hissəsi adlanır. Qısaldılmış şəkildə onu quruluş hissəsi, rəhbərini isə "quruluş hissə müdiri" adlandırırlar.

Quruluş hissəsinin işi necə təşkil olunur, o, teatrın strukturunda hansı yeri tutur?

İstənilən digər dövlət müəssisəsi kimi teatrın da fəaliyyəti ciddi planlaşdırma və hesab əsasında qurulur, idarəetmə isə vahid rəhbərlik prinsipi üzrə həyata keçirilir. Hər işçi inzibati qaydada hissə müdirlərinə, onlar isə öz növbəsində teatrın direktoruna tabe olur. Bu, tabeçiliyin əsas xəttidir, amma kifayət qədər vacib olan digər xətt də var. Teatr hər şeydən əvvəl, bədil-yaradıcı müəssisə olduğundan həm repertuara, həm də teatrın işinin bədii keyfiyyətinə görə məsuliyyət direktorla bərabər bədii rəhbərin və yaxud baş rejissorun üzərinə düşür. Buna görə də bədii-yaradıcı məsələlərdə teatrın bütün işçiləri baş rejissora tabe olur. Təsadüfi deyil ki, istənilən teatrın ştat cədvəlində həm inzibati-idarə heyətinin (direktor, müavin, köməkçilər və b.), həm də bədii-yaradıcı heyətin (baş rejissor, rejissor, baş rəssam, rəssam və b.) ştat vahidləri nəzərə alınır. İnzibati-quruluş hissəsi bllavasitə teatrın rəhbərliyinə tabe olur. Teatrda vahid istehsal prosesi kortəbii surətdə gedə bilməz. Yaradıcı məsələlər teatrın iqtisadi işləri ilə sıx bağlı olduğü kimi, onun işçilərinin intizamı ilə də bağlıdır. Buna görə də bütünlükdə teatr işinin təşkili zamanı həm ayrı-ayrı işçilərin, həm də hissə və şöbələrin konkret inzibati subordinasiyası mütləqdir. Amma tamaşanın tərtibatı üzərində işləyərkən quruluş hissəsi bilavasitə yaradıcı işlərlə də məşğul olur. Tamaşa tərtibatının rəssam ideyasına vahid bədii rəhbərlik də tələb olunur. Buna görə də hazırlanan tamaşanın tərtlbat məsələlərində quruluş hissəsi rəssama tabe olur. Rejissor isə yeni tamaşa istehsalında bütün bədii-yaradıcı işin yeganə rəhbəri və təşkilatçısıdır.

Quruluş hissəsinin bədii-yaradıcı vəzifələri yeni tamaşanın hazırlanması ilə bitmir. Hər gün tamaşanın tərtibatı üzərində işləyərkən quruluş hissəsinin işçiləri yenə də işin bədii tərəfi ilə bağlı olan bütün məsələlərdə baş rəssama və baş rejissora tabe olurlar. Bununla belə, baş rejissor və baş rəssamın göstərişləri teatr rəhbərliyinin ümumi sərəncamları çərçivəsindən kənara çıxmamalıdır.

Quruluş hissəsinin, onun öz strukturunun təşkili bütövlükdə teatrın strukturundan birbaşa asılıdır. Teatrlar bir-birindən fəaliyyətlərinin miqyasına, əhəmiyyətinə, janrına və stasionar, yaxud səyyar olmalarına görə fərqlənir. Bu isə, əlbəttə təkcə teatrın strukturuna deyil, həmçinin onun quruluş his-

